


"Hilton Baku" mehmanxanasında mədəniyyət və turizm nazirliyinin təşkilatçılığı, aidiyyəti qurumların, turizm sənayesində fəaliyyət göstərən özəl sektor nümayəndələrinin iştirakı ilə Dünya Turizm Gününə həsr olunmuş konfrans keçirilmişdir.

# Azərbaycan dünya turizm xəritəsində

Məlumat üçün bildirək ki, bu əlamətdar gün hər il Azərbaycan da daxil olmaqla dünyanın 150-dən çox ölkəsində turizm təmsilçiləri tərəfindən bayram kimi qeyd edilir.

Mərasimdə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev 2014-cü ilin doqquz ayı ərzində turizm sahəsində görülən işlər barədə danışmış, Dünya Turizm Təşkilatı İcraiyyə Komitəsinin üzvü olaraq ölkəmizin iştirak etdiyi, o cümlədən Bakıda təşkil olunan tədbirlərdən söz açmışdır: "Fərəhləndirici haldır ki, Azərbaycan regionun turizm mərkəzi tək daim müvafiq nümayəndələrinin diqqətini cəkir, müxtəlif tədbirlərin yüksək səviyyədə təşkilinə nail olur.

Respublikamızda gerçəkləşdirilən dünya forumları və digər mötəbər toplantılar buna bir nümunədir. Düşünürəm ki, növbəti illər ölkəmiz üçün xüsusilə əlamətdar olacaqdır. Belə ki, Bakıda keçiriləcək ilk Avropa Oyunları, İslam Oyunları Azərbaycanı dünya turizm xəritəsində cəlbedici məkan kimi daha dərindən tanıdacaqdır".

Nazir vurğulamışdır ki, hazırda respublikamızda 530 hotel fəaliyyət göstərir. Ötən 7 ildə hotellərin sayı 2 dəfə artmışdır.

Sonra Azərbaycanda turizmin inkişafından bəhs edən videoçarx nümayiş olunmuş, bu istiqamətdə görülən işlərdən, həyata keçirilən layihələrdən söhbət açılmışdır.

Nazirliyin regionlarda turizmin inkişafı sektorunun müdiri Mahir Qəhrəmanov Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən həyata keçirilmiş "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyaları haqqında məlumat vermişdir. Bildirilmişdir ki, layihə üzrə respublikanın 53 şəhər və rayonundan 9-11-ci sinif şagirdləri - ümumilikdə 2120 nəfər ekskursiya turlarında iştirak etmişdir.

Konfransda "Bakı Turizm Peşə Məktəbinin dəstəklənməsi" layihəsi barədə BMT İnkişaf Proqramının layihə koordinatoru Səbinə Babayevanın, "City Sightseeing Baku" şirkətinin yerli və xarici qonaqlara göstərilən xidməti ilə əlaqədar şirkətin baş direktoru Əfsun Əhmədovun, Azərbaycan Konqreslər Bürosunun fəaliyyəti haqqında qurumun müdiri Florian Senqşmitin, I Avropa oyunlarının Azərbaycanda keçirilməsi ilə bağlı "Bakı-2015" İcraiyyə Komitəsinin Kommersiya şöbəsinin direktoru Çarli Vijeratnanın, "Baku Guide" bələdçi kataloqu barədə layihənin koordinatoru Sadiq Musayevin təqdimatları dinlənilmişdir...